# Azərbaycanın sosial-iqtisadi tərəqqisində regionlar ön plana çıxır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Bu gün Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsas məqsədi ölkə əhalisinin həyat səviyyəsinin, maddi gəlirlərinin, məşğulluq səviyyəsinin davamlı şəkildə yüksəldilməsi, iqtisadi artım tempinin dayanıqlığının saxlanılmasıdır.**

Qeyd edilən məqsədə nail olmaq üçün Azərbaycanın sosial-iqtisadi tərəqqi strategiyasında regionlarda dinamik inkişafın təmin edilməsi xüsusi diqqət mərkəzində yer alır.

### Regionlar iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını daha dinamik hala gətirir

Burada bir məqamı xüsusi vurğulamaq lazım gəlir ki, Prezident İlham Əliyev regionların inkişafının davamlı sürətləndirilməsini özünün sosial-iqtisadi platformasının başlıca hədəflərdən biri kimi müəyyənləşdirib. Bu kontekstdə regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadəni nəzərdə tutan dövlət proqramları və digər layihələr həyata keçirilir. Bunlar ilk növbədə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirməklə yanaşı, yeni iş yerlərinin yaradılmasında, infrastruktur sahələrinin təkmilləşdirilməsində və yenilənməsində, regionların investisiya cəlbediciliyinin artırılmasında mühüm rol oynayır.

O da mühüm faktordur ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ilə bağlı görülən işləri, verdiyi tapşırıqları Prezident İlham Əliyev yerində yoxlayır. Dövlət başçısının regionlara mütəmadi səfərlərinin əsas məqsədlərindən biri də məhz budur. Elə bu günlərdə onun Daşkəsən, Goranboy rayonlarına, Naftalan şəhərinə son səfərinə həm də bu kontekstdən yanaşılmalıdır. Həmin şəhər və rayonlarda dövlət başçısının Daşkəsən, Goranboy rayonlarında, Naftalan şəhərində çoxsaylı obyektlərin açılışına qatılması bir daha təsdiq edir ki, ölkə regionları hərtərəfli inkişaf edir. Bu yerlərdə yeni infrastruktur layihələrinin, sənaye müəssisələrinin, idman obyektlərinin, yolların, içməli su və kanalizasiya xətlərinin istismara verilməsi də qeyd edilənlərin növbəti real təzahürüdür. Bütün bunların nəticəsidir ki, regionlarda, eləcə də bütün ölkədə görülən işlər sayəsində koronavirus pandemiyası səbəbindən iqtisadiyyatda qeydə alınan azalma artıq artımla əvəz olunur. Cari ilin ilk yarısının yekunları da göstərir ki, artıq Azərbaycan iqtisadiyyatı tənəzzüldən çıxıb. Dünya ölkələrinin böyük əksəriyyətinin hələ də iqtisadi tənəzzüldə olduğu bir vaxtda Azərbaycanda bu ilin ilk 6 ayında ümumi daxili məhsul istehsalı 2,1 faiz artıb. Bu prosesdə regionların da xüsusi çəkisi böyükdür. Məhz regionlarda görülən işlər hesabına iqtisadiyyatın dayanıqlı olması və şaxələndirilməsi uğurla həyata keçirilir. Bununla sosial-iqtisadi inkişafın effektivliyi təmin edilir, dövlət büdcəsinin gəlirlərinin artırılması və bu gəlirlərin müxtəlif mənbələrdən formalaşdırılması müvəffəqiyyətlə reallaşdırılır. Onu da xüsusi olaraq vurğulamaq lazım gəlir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün ölkənin regionlarında güclü iqtisadi potensial mövcuddur. Bundan irəli gəlir ki, ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilib. Proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi rgionların inkişafında yeni bir səhifə açıb.



### Qarabağ və Şərqi Zəngəzur cənnətə çevriləcək...

Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olan 44 günlük Vətən müharibəsinin nəticələri artıq regionların inkişaf siyasətində də mühüm yeniliklərin olması ilə müşayiət edilir. Söhbət ilk olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından gedir.

Xatırladaq ki, azad edilən ərazilər məhz bu iqtisadi rayonların tərkibindədir. İndi bu yerlərin bərpası istiqamətində Azərbaycan genişmiqyaslı işlər görür. Abşeron rayonunda şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşündə bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd edib: "Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik".

Azərbaycanın digər regionlarında olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesinin intensiv inkişaf yoluna qədəm qoyması proqnozlaşdırılır. Bu yerlərdə də dövlət dəstəyi mexanizmləri Qarabağ və Şərqi Zəngəzurda regional inkişafın sürətlənməsində mühüm rol oynayacaq. Bütövlükdə isə regionlarda iqtisadi aktivliyin artması büdcə gəlirlərinin regional diversifikasiyasına müsbət təsir göstərir, digər tərəfdən isə bölkgələrin maliyyə imkanlarının yaxşılaşmasına, bu yerlərdə insanların maddi rifah halının yüksəlməsinə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**